2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Fuad Cavadovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 avqust 2024-cü il tarixli 20 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri                                                                 10 avqust 2024-cü il

Mən, ekspert qrupunun üzvü Fuad Cavadov 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə 84 saylı Füzuli seçki dairəsindən namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Kazımov Osman Əlişirin oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 7 avqust 2024-cü il tarixli 23/56 saylı qərarından verdiyi 9 avqust 2024-cü il tarixli 20 saylı şikayətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulan müddətdə və qaydada verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması ona izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 84 saylı Füzuli seçki dairəsi üzrə O.Ə.Kazımovun namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş və dairə seçki komissiyasının 22 iyul 2024-cü il tarixli 13/31 saylı Qərarı ilə namizədliyi təsdiq edilmişdir.

Namizəd O.Ə.Kazımov tərəfindən namizədliyinin qeydə alınması üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilmiş digər seçki sənədləri 31 iyul 2024-cü il tarixdə dairə seçki komissiyasına təqdim edilmişdir.

Dairə seçki komissiyası 7 avqust 2024-cü il tarixdə 23/56 saylı qərarı ilə O.Ə.Kazımovun namizəd kimi qeydə alınmasından imtina etmiş və qərarını onunla əsaslandırmışdır ki, O.Ə.Kazımov xüsusi mülkiyyət hüququ əsasında ona məxsus olan və Abşeron rayonu, Masazır kəndində yerləşən 0,07 ha torpaq sahəsi barədə məlumatı düzgün təqdim etməmişdir.

Araşdırma prosesində namizəd O.Ə.Kazımov tərəfindən təqdim edilmiş imza vərəqələri və onlara əlavə edilmiş digər seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək götürülmüş və Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən araşdırılmışdır. Araşdırma ilə müəyyən edilmişdir ki, O.Ə.Kazımov xüsusi mülkiyyət hüququ əsasında ona məxsus sözügedən əmlak barədə dairə seçki komissiyasına düzgün məlumat verməmişdir.

Seçki Məcəlləsinin 58.3-cü maddəsinə görə, xüsusi mülkiyyət hüququ əsasında (o cümlədən, ümumi mülkiyyət hüququ əsasında) namizədə məxsus olan əmlak barədə məlumatlar həmin Məcəllənin 5 saylı Əlavəsinə uyğun formada təqdim edilir.

Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə görə, namizəd həmin Məcəllənin 58-ci maddəsinə uyğun olaraq məlumatları düzgün təqdim etmədikdə onun namizəd kimi qeydə alınmasından imtina edilir.

Həmçinin O.Ə.Kazımovun səhvlərin düzəldilməsi üçün qanunla müəyyən edilmiş müddətdə ona məlumat verilməməsi, eyni zamanda, əmlak haqqında düzgün məlumat daxil edilmiş sənədin nəzərə alınmaması haqqında iddiası da öz təsdiqini tapmamışdır.

Beləliklə, müraciət əsassız olduğundan təmin edilməməli, O.Ə.Kazımovun namizəd kimi qeydə alınmasından imtinaya dair 84 saylı Füzulı seçki dairəsi dairə seçki

komissiyasının 7 avqust 2024-cü il tarixli 23/56 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58-ci, 60-cı, 112-ci, 112-1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 84 saylı Füzuli seçki dairəsindən namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Kazımov Osman Əlişirin oğlunun 9 avqust 2024-cü il tarixli 20 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 avqust 2024-cü il tarixli 23/56 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Fuad Cavadov